# Mətbuat gələcəyə tarixi sənəddir

*(Redaksiya kollektivi ilə müsahibə)*

***Mətbuat dedikdə, ilk növbədə həmişə qəzetlər göz önünə gəlir. Çünki ta yarandığı gündən qəzetlər ən operativ təbliğat və təşviqat vasitəsi hesab olunmuşdur. Jurnallara rəğmən qəzetlər gündəlik nəşr olunurdu. Oxucu kütləsi arasında bir mətbuat "aclığı" hiss olunurdu. İllər bir-birini əvəz etdikcə, zaman öz "hökmü"nü göstərir.***

***Hazırda texnologiyanın günbəgün inkişaf etdiyi bir dövrdə yaşayırıq. Telefon, internet, sosial media qəzetçiliyə öz təsirini göstərir və göstərməkdədir. Ancaq qəzetlər həyatı faktiki olaraq təbliğ edir, zamanın nəbzini olduğu kimi "tutur". Çünki qəzet tarixi bir sənəd kimi vərəqləri saralsa, köhnəlsə belə gələcək nəsil, sabahımız üçün qalıcıdır. Həm də sensasiya xarakterli yazılardan demək olar ki, uzaqdır. Müasir dövrün qəzetçiliyi ilə bağlı "Qəbələ səsi" qəzetinin əməkdaşları və redaksiya kollektivi ilə Milli mətbuatımızın 151 illiyi ərəfəsində müsahibə apardıq. Dəyirmi masa arxasında keçən müsahibəmizlə oxucularımızı tanış edirik.***



**- Azad müəllim, "Qəbələ səsi" qəzetinin baş redaktoru kimi, sizin qəzetçilik fəaliyyətinin məsuliyyəti haqda fikirlərinizi bilmək istərdik.**

- Hər vaxtınız xeyir. Bu gün müasir texnologiyanın, son internet üstünlüklərinin dövründə çap fəaliyyətini yaşatmaq bir sıra problemləri üzə çıxarır. Tək qəzet yox, həmçinin kitab və jurnalın da oxucular tərəfindən qarşılanmasında da ötən illərdən fərqli münasibət izlənilir. Sosial şəbəkələrdən əldə edilən məlumatlar oxucu kütləsini çap materialından uzaqlaşdırır. Bu gün oxucu ölkədə və dünyada baş verən siyasi hadisələri sosial şəbəkələrdən, hansısa bloger məlumatından alır.

Nəticədə qəzet və kitab oxuyanların sayı sürətlə azalır. Çox təəssüf ki, internet materialları, yoxsa çap materialları daha obyektiv, dürüst malumatları özündə ehtiva etdiyini oxucu araşdırmır. Odur ki, qəzetin növbəti nəşrini çapa hazırlayarkən daha məsuliyyətli olmaq lazım gəlir. Çap materialları daha etibarlı mənbələrə istinad etməlidir. Çünki qəzetdə verilmiş hər hansı bir məlumat reallığa istinad etməzsə o qəzetə olan etimadı azaldır.

**- Azad müəllim, əvvəl işlədiyiniz və rəhbəri olduğunuz kollektivlərə rəğmən, çoxsaylı, yoxsa sayı az olan kollektivlə işləmək - hansı daha maraqlı və məsuliyyətlidir? Bu kollektivimiz və oxucularımız üçün də maraqlı olar.**

- "Azsaylı, yaxud çoxsaylı kollektiv" termini ilə razılaşmıram. Mənim üçün ən önəmlisi işinin məsuliyyətini dərk edən, savadlı və işgüzar işçi daha önəmlidir.

**- Qəzetimizi yaşatmaq üçün jurnalist və redaksiya kollektivinin başlıca vəzifəsi nə ola bilər?**

- Oxucunun maraq dairəsini bilmək, ən müasir və real hadisələri araşdırıb şərh edərək oxucuya çatdırmaq.

**- Qəzet rayon əhalisinə nə verir?**

- Vaxtı ilə bir sıra oxunaqlı qəzetlər əlbəəl gəzirdi. Səhərlər qəzet köşklərinin qarşısı qəzet alan insanlarla dolu olardı. Çünki məlumat aclığı vardı. Son və lazımi məlumatlar qəzetdən alınırdı. İndi social şəbəkə məlumatları insanları yanlış istiqamətdə məlumatlandırır. Çünki bu cür məlumatlar həqiqətə söykənmir. Bu gün Qəbələ əhalisinin çox hissəsi rayonumuzda aparılan quruculuq-abadlıq işlərindən, rayonda keçirilən tədbirlərdən xəbərsizdir. Çünki internet səhifələrində bu işlər işıqlandırılmır. "Qəbələ səsi" qəzeti bu məlumatları oxuculara şərh edərək təqdim edir. Rayon əhalisi buradan yeni iş yerləri, hüquqları, aparılan quruculuq-abadlıq işləri barədə düzgün məlumat əldə edə bilər.

**- Milli Mətbuat Günü oxucularımıza sözünüz?**

-Oxucular, xüsusilə gənclər sosial şəbəkə məlumatlarının doğruluğunu araşdırsınlar, insan psixologiyasına, sağlamlığına zərəli olan vərdişlərdən uzaq olsunlar. Daha çox kitab, qəzet və digər çap materiallarına istinad etsinlər, oxusunlar. Vaxtı ilə təhsil, mədəniyyət müəsisələrində gənclər və yaşlı nəsil arasında kitab, əsərlərin müzakirəsi keçirilərdi. Bu ənnənələr bərpa olunmalı, yaşadılmalıdır. Çox təəssüf ki, bunlar həyat səhifəmizdən çıxarılıb…

* * *

**- Bibixanım müəllimə, mətbuat və həyat! Bu haqda öz fikirlərinizi oxucularımızla bölüşə bilərsinizmi?**

- İnsan bioloji baxımdan mətbuatsız yaşaya, mövcud ola bilər, ancaq müasir sosial, siaysi və mədəni həyat mətbuat olmadan qeyri-mümkündür. Mətbuat və media cəmiyyəti məlumatlandırmaqla bərabər, ictimai nəzarət mexanizmi rolunu oynayır. Kütləvi informasiya cəmiyyətin görən gözüdür, o olmasa idarəetmə şəffaflığını itirər və qərarlar qəbul edərkən manipulyasiyalara qarşı müdafiəsiz qalar. Mətbuat hakimiyyət və qurumların fəaliyyətini izləyərək şəffaflığı və hesabatlılığı təmin edir. Həmçinin ictimai müzakirələr üçün platforma qurur, tarixi sənədləşdirir.

- Sosial medianın mətbuatı əvəz edib-etməməsi məsələsi haqqında oxucularımıza nə deyə bilərsiniz?

- Yaşadığımız zamanın ən qlobal mediasıdır sosial media. O heç də mətbuatı tamamilə əvəz etməyib, əksinə onu transformasiya edərək, yeni bir məlumat ekosistemi yaradıb. Ənənəvi mətbuat etibarlılıq və peşəkarlıq funksiyasını qorusa da, sosial media xəbərlərin çatdırılma sürətinin və auditoriya ilə interaktivliyi artırıb.

**(Ardı 8-ci səhifədə).**

# Narkotik əsrin bəlasıdır!

Mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddələrə narkotik maddələr deyilir. Narkotik "narke" sözündən götürülüb yunan dilindən tərcümədə mənası yuxu, bihuşluq deməkdir və "mania"- cəzb etmə, ağılsızlıq deməkdir. Narkotik maddələr ilk öncə tibbdə istifadə olunmağa başlamışdır. Bu elə bir maddədir ki, insan düşüncəsinə təsir edir və müəyyən mənada beyni tənzimləyir. Bu tənzimləmə hər cür psixoloji və fiziki deffektlərlə nəticələnə bilər. Bu o deməkdir ki, narkotiklər hissləri, əhval-ruhiyyəni, düşüncəni dəyişməyə qadirdirlər. Narkomanlıq - xroniki intoksikasiya doğuran, narkotik və psixotrop maddələrin sui-istifadəsi nəticəsində yaranan və psixi və fiziki asılılıqla müşayiət olunan xəstəlikdir. Narkomaniya xəstələrində narkotiklərin qəbulunun dayandırılması və ya dozanın azaldılmasından bir müddət sonra inkişaf edən fiziki və psixi pozulmalar Abstinent sindromuna gətirib çıxardır. Bu sindrom fiziki asılılıq sindromunun tərkib hissəsidir. Narkotiklərə alışmış orqanizmin abstinent sindrom zamanı yaranan ağrı hisslərindən azad olmaq arzusu o dərəcədə güclüdür ki, bu zaman narkotik əldə etmək xatirinə insan yalana, oğurluğa hətta adam öldürməyə də əl ata bilər. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə dünyada 16 milyona yaxın insan inyeksion narkotiklərdən istifadə edir, onların da 3 milyonunda Qazanılmış İmmun Çatışmazlığı Sindromu (QİÇS) xəstəliyi vardır. Azərbaycanda da rəsmi statistikaya görə son beş ildə narkomanların sayı 10 dəfəyədək artıb. Son məlumatlara əsasən respublikada narkomanların rəsmi sayı 30 min nəfərə yaxındır.

**Gələcəyimizi kölgədə qoyan bəla**

Narkomaniyaya qarşı mübarizə hər birimizin vətəndaşlıq borcudur. Müasir dünyada bəşəriyyəti təhdid edən, miqyasına və vurduğu zərərlərə görə qlobal xarakter alan ən ciddi problemlərdən biri də narkomaniyadır. "Ağ ölüm" adlandırılan bu asılılıq təkcə fərdin sağlamlığını məhv etmir, həm də ailələri dağıdır, genofondu zədələyir, cinayətkarlığı artırır və bütövlükdə cəmiyyətin mənəvi-sosial sütunlarını sarsıdır.

Azərbaycan Respublikasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə dövlət siyasətinin ən mühüm prioritetlərindən biridir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan bu strateji xətt bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Lakin hüquq-mühafizə orqanlarının əməkdaşı olaraq vurğulamalıyam ki, bu bəlaya qarşı yalnız inzibati metodlarla deyil, həm də genişmiqyaslı maarifləndirmə və ictimai qınaq vasitəsilə mübarizə aparmaq mütləqdir.

**Sağlamlığa və mənəviyyata vurulan ağır zərbə**

Narkotik maddələrin insan orqanizminə vurduğu ziyan geri dönüşü olmayan fəsadlarla xarakterizə olunur. Tibbi araşdırmalar göstərir ki, narkotik vasitələrin qəbulu ilk növbədə mərkəzi sinir sistemini, baş beyni sıradan çıxarır, ürək-damar və tənəffüs sistemində ağır patologiyalar yaradır. İmmunitet zəifllədiyi üçün orqanizm hər cür infeksiyaya açıq olur, QİÇS (HİV), Hepatit B və C kimi qorxulu xəstəliklərin sürətlə yayılmasına zəmin yaranır.

Məsələnin ən dəhşətli tərəfi isə narkomaniyanın insan mənəviyyatını, şəxsiyyətini tamamilə məhv etməsidir. Asılılıq formalaşdıqdan sonra fərd öz davranışlarına nəzarəti itirir. Növbəti dozanı əldə etmək üçün o, hər cür cinayətə - oğurluğa, soyğunçuluğa, dələduzluğa və hətta qətlə belə əl ata bilir. Beləliklə, bir insanın asılılığı bütöv bir ailənin faciəsinə, cəmiyyət üçün isə potensial təhlükə mənbəyinə çevrilir.

**Hüquqi müstəvidə mübarizə və qətiyyətli addımlar**

Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları, o cümlədən daxili işlər, dövlət təhlükəsizliyi və gömrük xidmətləri narkotiklərin qanunsuz dövriyyəsinə, xüsusən də ölkəmiz vasitəsilə daşınan tranzit marşrutlara qarşı mübarizə aparır. Hər il tonlarla narkotik maddə qanunsuz dövriyyədən çıxarılır, beynəlxalq narkoqruplaşmalar ifşa olunur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, narkotik vasitələrin qanunsuz satışı, istehsalı, daşınması və kultivasiyası (əkilməsi) müvafiq olaraq az ağır və ağır cinayətlər kateqoriyasına aiddir və şəxslər uzunmüddətli azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılırlar. Dövlətimizin qanunları bu sahədə kompromissizdir.

Lakin müasir dövrdə narkotik alverçiləri texnologiyanın imkanlarından istifadə edərək internet resursları, sosial şəbəkələr və müxtəlif messencerlər vasitəsilə gizli satış şəbəkələri qurmağa çalışırlar. Bu, bizim qarşımıza yeni çağırışlar qoyur. Hüquq-mühafizə orqanları kiberməkanda da bu cinayətlərin qarşısını almaq üçün ən müasir texnoloji üsullardan istifadə edir.

**"Sintetik narkotiklər" - gəncliyimizi hədəf alan yeni təhlükə**

Son illər dünyada və ölkəmizdə ən böyük təhlükələrdən biri "patı", "şüşə" adlandırılan sintetik narkotik maddələrin (metamfetamin və s.) yayılmasıdır. Gənclər arasında yanlış olaraq bu maddələrin "asılılıq yaratmadığı" və ya "enerji verdiyi" barədə tamamilə yalan və aldadıcı mif formalaşdırılır.

Sürətli asılılıq: Sintetik narkotiklər bitki mənşəli narkotiklərdən fərqli olaraq, cəmi 1-2 qəbuldan sonra güclü psixoloji və fiziki asılılıq yaradır.

Psixoz və intihar: Bu maddələr insan beynini sürətlə çürüdür, kəskin psixozlara, hallüsinasiyalara və əksər hallarda intihara (suisidə) səbəb olur.

Gənclərin hədəf seçilməsi: Narkotik tacirləri xüsusilə iradəsi tam formalaşmamış, yeniyetmə və gəncləri torlarına salmağa çalışırlar.

**Maarifləndirmə və sosial məsuliyyət**

Narkomaniya ilə mübarizədə təkcə polisin və ya məhkəmənin fəaliyyəti kifayət deyil. Bu, ümummilli bir məsələdir. Mübarizənin ən effektiv yolu "profilaktika" və "maarifləndirmədir".

1. Ailənin rolu: Valideynlər övladları ilə yaxın dost olmalı, onların davranışlarındakı qəfil dəyişikliklərə (yuxu rejiminin pozulması, əsəbilik, evdən pul və ya əşyaların itməsi, şübhəli dost çevrəsi) qarşı diqqətli olmalıdırlar.

2. Təhsil müəssisələri: Məktəblərdə, universitetlərdə mütəmadi olaraq maarifləndirici seminarlar keçirilməli, gənclərə "yox" deməyi bacarmaq iradəsi aşılanmalıdır.

3. İctimai qınaq və media: KİV və sosial media platformaları bu mövzunu daim gündəmdə saxlamalı, narkotiklərin acı nəticələrini real faktlarla cəmiyyətə çatdırmalıdır.

Hər bir Azərbaycan vətəndaşı dərk etməlidir ki, narkomaniyaya qarşı mübarizədə bitərəf mövqe tutmaq olmaz. Bu gün kiminsə övladının başına gələn facie sabaha qarşı səssiz qaldığımız təqdirdə hər birimizin qapısını döyə bilər.

Biz hüquq-mühafizə orqanları olaraq, xalqımızın təhlükəsizliyi, gənclərimizin parlaq gələcəyi naminə qanunsuz dövriyyəyə qarşı mübarizəmizi qətiyyətlə davam etdirəcəyik. Gəlin, gələcəyimizi birlikdə qoruyaq, narkotikə "Yox!" deyək, sağlam və güclü Azərbaycan naminə birgə mübarizə aparaq!

**Əli MƏMMƏDZADƏ,**
**Qəbələ Rayon Prokurorluğunun müstəntiqi vəzifəsi üzrə stajor.**